AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS



www.pq.mia.gov.az

polisazerbaycan

1 dekabr 2022-ci il
cümə axşamı

1933-cü ildən çıxır
№ 47 (3610)

# YENİ DÜNYA DÜZƏNİNDƏ AZƏRBAYCANIN ROLU



Cənubi Qafqazda söz sahibi, eləcə də sülhün və təhlükəsizliyin təminatçısı kimi geoiqtisadi, geosiyasi mövqeyindən maksimum yararlanaraq, regionlararası nəqliyyat-logistika əlaqələrinin yaradılmasında fəal iştirak edən Azərbaycan mühüm qlobal layihələrin reallaşmasına böyük töhfə verir. Hazırda Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq həm də "Cənub-Qərb" və "Şimal-Qərb" layihələri üzərində iş aparır. Bütün bunlar isə Prezident İlham Əliyevin Azərbaycanı ümumilikdə Avroatlantika geosiyasi arealında öz sözü və mövqeyi olan dövlətə çevirdiyini və qlobal layihələri ilə ölkəmizin etibarlı tərəfdaş kimi tanındığını bir daha təsdiqləyir.

ADA Universitetində keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda Prezident İlham Əliyev bu məsələyə toxunaraq Azərbaycanın bununla bağlı atdığı addımları, gələcək planları barədə ətraflı məlumat verib.

Dövlət başçısı çıxışında qlobal layihələrin uğurla həyata keçməsi üçün ilk növbədə bölgədə sülhün təminatının reallaşdırılmasının vacibliyini vurğulayıb. Qeyd edib ki, Orta dəhlizin iştirakçıları olan ölkələrin fiziki nəqliyyat və logistika infrastrukturunu yaratmaq üçün onlara aid ev tapşırığının yerinə yetirilməsi də çox vacibdir.

Bu gün Azərbaycan şərqlə qərbi birləşdirən nəqliyyat qovşağı və logistik mərkəzdir. Bu xüsusda yaxın zamanlarda reallığa çevriləcək Zəngəzur dəhlizinin həm bölgə, həm də ümumilikdə Avrasiya arealı üçün böyük əhəmiyyəti danılmaz faktdır.

Zəngəzur dəhlizi ölkəmizin ərazisindən keçməklə, Asiya ilə Avropanı birləşdirən "Şərq-Qərb" dəhlizinin bir hissəsinə çevriləcək. Bu, Azərbaycan-Avropa iqtisadi halqasını Asiya ilə birləşdirən yeni bir nöqtədir.

Dəhliz həmçinin, qardaş Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq ki, bu da türk dünyası ilə iqtisadi əlaqələrin daha da gücləndirilməsi şəraitinin yaranacağı deməkdir.

Yeni dünya düzənində gündəmin əsas mövzularından birini təşkil edən Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycan əsas açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunmaqdadır. Həqiqətən də Azərbaycanın qitədə enerji təhlükəsizliyinin təminatında mühüm rol oynaması ölkə sərhədlərindən kənarda, ən yüksək səviyyələrdə etiraf olunmaqdadır. Bütün bunlar, əlbəttə ki, Prezident İlham Əliyevin müstəqil siyasətinin və uğurlu xarici diplomatiyasının nəticəsidir.

Məhz dövlət başçımızın təşəbbüsü ilə həyata keçirilən bir çox nəhəng layihə Avrasiya məkanının enerji və nəqliyyat xəritəsini dəyişdirib, bölgənin və daha geniş coğrafiyanın enerji təhlükəsizliyinin təmin edilməsinə, nəqliyyat-kommunikasiya, logistika infrastrukturunun inkişafına mühüm təsir göstərib.

# DAXİLİ İŞLƏR NAZİRİ SIRA BAXIŞI KEÇİRİB





Noyabrın 30-da Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Sıra baxışında Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində, o cümlədən mediada verilmiş elana uyğun olaraq Nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 211 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 30 nəfəri Vətən müharibəsinin iştirakçısı, 1-i isə şəhid ailəsinin üzvü olub.

Tədbirdə çıxış edən daxili işlər naziri V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.




***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il dekabr ayının 17-də Xaçmaz Rayon Polis Şöbəsinin inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 16.12.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***

# ŞƏHİDİN XATİRƏSİ ANILIB



Bu günlərdə Ucar rayonunun Qazyan kəndindəki "Yeni Həyat" sarayında Daxili İşlər Nazirliyinin şəhid hərbi qulluqçusu gizir Ələkbərov Vüqar Telman oğlunun anım mərasimi keçirilib. Mərasimdə şəhidin ailə üzvləri, silahdaşları, veteranlar, Ucar Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Yeni Azərbaycan Partiyasının rayon təşkilatının üzvləri, rayonda fəaliyyət göstərən hüquq mühafizə orqanlarının, aidiyyəti dövlət qurumlarının təmsilçiləri, məktəblilər, kənd sakinləri iştirak ediblər.

Tədbir iştirakçıları tərəfindən şəhidin məzarı ziyarət olunaraq üzərinə gül dəstələri qoyulub, ruhuna dualar oxunub.

Mərasimdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla anıldıqdan sonra Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Şəhidin valideynləri övladlarının şəxsi keyfiyyətlərindən, ürəyində Vətən sevgisi, düşmənə nifrət hissi ilə mərdlik göstərərək torpaqlarımızın işğaldan azad olunması üçün ləyaqətlə döyüşməsindən, bütün elobanın onunla qürur duymasından danışıblar.




Vüqarın silahdaşları onunla bağlı xatirələrini bölüşüb, 44 günlük Vətən müharibəsində qələbəmizin Müzəffər Ali Baş Komandanın sərkərdə qüdrəti sayəsində, habelə şəhidlərin və qazilərin qanı bahasına qazanıldığını vurğulayıblar.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə gizir V.Ələkbərov torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər zamanı şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov,*
*DİN Daxili*
*Qoşunlarının veteranı*

# Mübarizəmizin maarifləndirmə "cəbhəsi"





**Sabunçu Rayon Polis İdarəsinin** təşkilatçılığı ilə 11 nömrəli İnteqrasiya təlimli internat məktəbində "Narkotikə yox deyək"! adlı maarifləndirmə tədbiri keçirilib.

Dövlət Himninin səsləndirilməsindən və Vətən müharibəsi şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra İcra Hakimiyyətinin başçısının müavini Güloğlan Məmmədov sağlam nəslin formalaşmasının Azərbaycanın dövlət siyasətində başlıca vəzifə olduğunu, narkomaniya ilə mübarizənin də bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

**Polis idarəsinin rəisi, polis polkovniki Cavid Muradov** narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizəyə gənclərin aktiv qoşulması ilə bu bəlanın kökünün kəsiləcəyinə əminliyini bildirib. Rayon ərazisində narkotik vasitələrin dövriyyədən çıxarılması ilə bağlı nəticələrə diqqət çəkən idarə rəisi qeyd edib ki, daxili işlər orqanlarının əməkdaşları əməliyyat-istintaq, əməliyyat-axtarış tədbirləri keçirməklə yanaşı, yeniyetmə və gənclərin maarifləndirməklə də narkomaniyaya qarşı mübarizə aparırlar. Bu məsələdə valideynlərin üzərinə böyük məsuliyyət düşdüyü, yalnız birgə mübarizə sayəsində bugünki qalib Azərbaycan gəncliyinin əldə etdiyi zəfərlərin davamlı olacağı vurğulanıb.

**Tədbirdə çıxış edən DİN Mətbuat Xidmətinin rəis müavini, polis polkovnik-leytenantı Hafiz Təmirov, həkim-narkoloq Zamin Əliyev və psixoloq Ofeliya Məmmədova** məktəblilərə narkotiklərdən uzaq durmağı, vətənpərvərlik ruhunda böyüməleri və layiqli vətəndaş olmaları üçün dəyərli tövsiyələr veriblər. Sonda məktəblilərin mövzu ilə bağlı hazırladıqları tamaşa və video materiallara baxış keçirilib, fərqlənən şagirdlər, eləcə də müəllimlər mükafatlandırılıb.

Bakı Türk Liseyində "Azərbaycan gəncləri narkotikə yox deyir!" mövzusunda təşkil edilən görüşdə Səhiyyə Nazirliyinin, Rayon İcra Hakimiyyətinin, təhsil şöbəsinin, nümayəndələri, məktəbin pedaqoji heyəti və yuxarı sinif şagirdləri iştirak ediblər.

**Nəsimi RPİ-nin rəisi, polis polkovniki Mirnemət Mirbabayev** yeniyetmələrə narkotiklərin mənfi fəsadları barədə geniş məlumat verib, şagirdlərə narkotiklərdən uzaq durmağın, qarşılaşdıqları bu kimi neqativ hallarla bağlı dərhal müəllimlərə və polislərə məlumat verməyin vacib olduğunu bildirib.

*Ardı 3-cü səhifədə.*

# Polis təbiətin də keşiyindədir

Daxili işlər orqanları tərəfindən ekoloji cinayətlərin və ekoloji təhlükəsizlik əleyhinə olan inzibati xətaların qarşısının alınması məqsədilə zəruri tədbirlər həyata keçirilir.

2022-ci ilin ötən dövrü ərzində bu istiqamətdə keçirilən tədbirlər nəticəsində qanunsuz ağac kəsmə faktı üzrə 173, balıq və başqa su heyvanlarını tutmağa görə 99, qanunsuz ovla bağlı isə 1 cinayət işi başlanılıb.

Eyni zamanda, meşə qanunvericiliyinin tələbləri, yerin təkindən istifadə qaydalarını pozduqlarına və qanunsuz ov etdiklərinə, eləcə də mülki silahın daşınması qaydalarını pozduqlarına görə 2433 nəfər barəsində inzibati tənbeh tədbiri görülüb.

Daxili İşlər Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə respublikanın şəhər və rayonlarında, meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında, çimərliklərdə məişət tullantılarının tutumundan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə də tədbirlərini davam etdirib. Bu istiqamətdə keçirilən birgə tədbirlər zamanı 10.800 nəfər barəsində inzibati tənbeh tədbiri görülüb.

*N.Cavadov,*
*polis mayoru*

# Fotosu "danışan" uşaq

Suraxanı RPİ-nin əməkdaşları daha bir azyaşlını küçədə aşkar edərək sığınacağa yerləşdiriblər. Həmkarlarımız 2012-ci il təvəllüdlü Məsumə adlı qızcığazın fotosunu da çəkiblər, ancaq müəyyən səbəblərdən biz o "danışan" fotonu tam dərc edə bilmirik, siması görünməsin deyə bilərəkdən kompüter effekti ilə görünməz edirik...

Heç şübhəsiz ki, o da belə "görünmək" istəməzdi.

Yaşıdları kimi evcikləri ilə xəyal dünyasında oynayar, şəklini çəkənin üzünə baxıb həyat dolu gülümsəyər və fotolarında qayğısız uşaq kimi əks olunardı. Onu aşkar edən polislərə ağalaya-ağlaya "nə olar, məni yetimlər evinə verməyin" deyib yalvaran bu qızcığazı tale, ya da talesizlik ata-ana sevgisindən, sığalından, nəvazişindən məhrum edib, küçələrə salıb. Və budur, biz indi adı kimi bütün məsumiyyəti ilə gözlərini fotodan üzümüzə zilləyib dupduru şəhə bənzər baxışları ilə uşaqlığını yaşaya bilmədiyini, müdafiəyə ehtiyac duyan böyüyə çevrildiyini deyən uşaq görürük.



O, cılız vücuduna yüklənmiş ağır yükü, dərdi həmkarlarımızla - Suraxanı RPİ YYÇ işləri üzrə polis əməkdaşları ilə bölüşüb. Deyib ki, anası ölüb, atasını isə tanımır. Qaldığı uşaq evi bağlandıqdan sonra bir il tanımadığı, küçədə zibil yığan qadının yanında qalıb, o da öləndən sonra küçələrdə gecələyib.

Bu həqiqətdirmi, yoxsa həyatına qorxu, zorakılıq, işgəncə olmadan davam edə bilsin deyə evcikləri ilə oynayarkən qurmalı olduğu, ancaq indi yaşamaq üçün sərf etdiyi xəyali uydurmalarıdırmı, bunun bir o qədər önəmi yoxdur. Önəmli olan onun həyatda sağ qalmaq naminə bu yaşında mübarizə aparmaq məcburiyyətində qalması və etibarlı liman kimi polisə sığınmasıdır... Yeri gəlmişkən, uşağın baş və bədən nahiyəsində xəsarətlər olduğuna görə 31-ci PB-də xüsusi araşdırma aparılır.

Bu yerdə, bu cür uşaqların vaxtında aşkar edilməsi məqsədilə Bakı Şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin müxtəlif qeyri-hökumət və dövlət qurumları ilə koordinasiyalı işlədiyini mütləq qeyd etməliyik. Bu qurumlar arasında yaradılmış votsap qrupu sayəsində kimsəsiz, baxımsız qalan uşaqların tapılıb müvafiq sığınacaqlara yerləşdirilməsində operativlik təmin edilib. Bununla da qorunmaya ehtiyac duyan uşaqların ən azından küçə həyatı yaşamalarının qarşısı alınır.

*R.Mehtiyev*

# Gənc doktorantdan yeni kitablar







DİN-in Polis Akademiyasının əməkdaşı, polis baş leytenantı Aynur Səfərlinin növbəti kitabları işıq üzü görüb.

"Düşüncəmin iqlim qurşaqları"nda müəllifin 2018-ci ildən bu günə kimi çap olunmuş elmi və publisistik məqalələri, konfrans materialları və tezisləri toplanılıb. Kitab məqalələrin məzmununa uyğun olaraq bir neçə bölmədən ibarətdir.

"Azərbaycan dilçiliyinin sütunları" adlı kitabda isə dilçilik elmimizin formalaşmasında xidməti olmuş görkəmli alimlər haqqında bioqrafik və biblioqrafik məlumatlarla yanaşı, dilçilik tarixinə nəzər salınır, Azərbaycan dilinin və əlifbasının tarixi haqqında əsaslı mənbələrə söykənən elmi fikirlər yer alır.

Qeyd edək ki, A.Səfərli Bakı Dövlət Universitetinin doktorantıdır.

*"Polis"*

# Cari ilin 10 ayında...

2022-ci ilin 10 ayı ərzində hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 9564 cinayət faktı aşkarlanıb. Onlardan 3181-i narkotik vasitələrin qanunsuz satışı, 5902-si narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 393-ü qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 88-i isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 5 ton 062 kiloqram 984,171 qram və 32918 həb narkotik vasitələrin və 2514 ədəd psixotrop maddələrin 2 ton 013 kiloqram 364,252 qramını heroin, 1 ton 858 kiloqram 236,599 qramını marixuana, 280 kiloqram 269,535 qramını tiryək, 28 kiloqram 010,544 qramını həşiş, 260,95 qramını kokain, 143 kiloqram 153,193 qramını və 32918 ədəd həb digər narkotik vasitələr və 739 kiloqram 689,098 qram və 2514 ədəd psixotrop maddə təşkil edib. Həmçinin, göstərilən dövr ərzində 1 kiloqram 808,8 qram güclü təsir edən maddə, 10 kiloqram 037,6 qram zəhərli maddə, 80096 ədəd narkotik xassəli çətənə bitkisi qanunsuz dövriyyədən götürülüb.

Ümumilikdə, aşkar edilən cinayətlərin 324-ü qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 1 ton 870 kiloqram 056,294 qram və 9548 həb narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 532,683 hektar sahədən çəkisi 172 ton 753 kiloqram 608,85 qram olan 381528 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitki müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun təşkilatçılığı ilə cari ilin 05-06 may tarixində məhkəmələrin qərarları ilə müsadirə olunmuş 2 ton 402 kiloqram müxtəlif növ narkotik vasitə, 215 kiloqram psixotrop maddə, onların prekursorları və 28697 ədəd çətənə bitkisinin məhv edilməsi prosesi həyata keçirilib.

*N.Cavadov*

# Mübarizəmizin maarifləndirmə "cəbhəsi"

*Əvvəli 2-ci səhifədə.*

Nərimanov rayonunda "Evrika" liseyində keçirilən görüşdə Rayon Polis İdarəsinin əməkdaşları, pedaqoji heyət və yuxarı sinif şagirdləri iştirak ediblər.









Görüşdə çıxış edən Nərimanov **RPİ-nin rəisi, polis polkovniki Vaqif Müslümov** narkotik vasitələrin insan sağlamlığına vurduğu zərərlərdən və yaratdığı hüquqi məsuliyyətindən danışıb. O, bildirib ki, bütün dünyanın bəlasına çevrilən və "ağ ölüm" kimi tanınan bu zərərli maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı qətiyyətli mübarizə tədbirləri həyata keçirilir. Maarifləndirmə tədbirləri ilə yeniyetmə və gəncləri narkomaniya bəlasından qorumağa çalışdıqlarını deyən idarə rəisi elmə-təhsilə, idmana maraq göstərən gənclərin özlərinə uğurlu həyat hekayəsi yazdıqlarını deyib.

**Zərdab Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə** İsaqbağı kənd tam orta məktəbində baş tutan görüşdə çıxış edən **RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Azər Əfəndiyev** əsrin bəlası olan narkomaniyanın yayılmasının millətin sağlam həyat tərzinə törətdiyi ciddi təhlükələrdən bəhs edib. Narkotik istifadə etməklə fiziki və psixoloji cəhətdən məhv olan gəncin, eyni zamanda, digər cinayət hadisələri törətməyə meyilli olduğunu, bunun da hüquqi məsuliyyət doğurduğunu qeyd edən şöbə rəisi, narkotiklərin qarşısının alınmasında hər bir vətəndaşın fəal olmasının zəruriliyini diqqətə çatdırıb.





Göyçay rayonunun 1 nömrəli məktəbində keçirilən tədbirdə **RPŞ-nin rəisi, polis polkovniki Müqalib Abdıyev** çıxış edib. Şöbə rəisi narkomaniyanın cəmiyyətin mənəvi və əxlaqi dəyərlərinə ciddi zərbə vuran, insanların həyat və sağlamlığına böyük təhlükə yaradan əsas amillərdən biri olduğunu vurğulayıb. O, məktəbliləri diqqətli olmağa və asılılıq yaradan, insanı məhvə sürükləyən zərərli təsirlərdən uzaq olmağa çağırıb.

Antinarkotik təbliğatı çərçivəsində Qubadlı RPŞ-nin təşkilatçılığı ilə Sumqayıt şəhərində yerləşən rayonun Mahruzlu, Pirallahı RPŞ-nin əməkdaşları 231, 235 və 243, Nizami RPİ 23-cü PB-nin əməkdaşları 201 saylı və Tərtər RPŞ-nin əməkdaşları rayonun Cəmilli kənd tam orta məktəblərində oxşar tədbirlər keçiriblər.

# İrəvanın keçmişi, bu günü

## *Polislərin də oxumalı olduğu kitab*

Tariximiz dərs götürüləcək hadisələrlə doludur. Hətta yaxın illərdə elə faciələrlə rastlaşmışıq ki, nəticələrin aradan qaldırılmasında, həmin taleyüklü anlarda ilk mübarizəyə qalxıb Vətən uğrunda canından keçən, özlərini cinayətkar qəsdlərə sipər edənlər polislər oldu. Bəlkə də elə buna görə tarix kitablarını hər kəsdən artıq məhz polis əməkdaşı oxumalıdır...

Bu yaxınlarda Mədəniyyət Nazirliyinin dəstəyi ilə çap olunmuş "İrəvan necə varsa: keçmişdən bu günə" kitabı da keçmişə dönüb, olanlara nəzər salmaq və yaddaşımıza həkk etmək, o yanlışlıqların təkrar olmasını durdura bilmək üçün bilim adamlarımızın, sözün əsl mənasında, min bir əziyyət və zəhmətlə ərsəyə gətirdikləri bir vəsaitdir.

Kitabda ilk dəfə olaraq Azərbaycanın tarixi İrəvan şəhəri kompleks şəkildə tədqiq olunub. Bütün problemlərin Qərbi Azərbaycan tarixi və onun həyatının bütün sahələrinə dair materiallar kontekstində nəzərdən keçirilməsi oxucular üçün kitabın əhəmiyyətini daha da artırır.




Nəşrin birinci fəsli İrəvan şəhərinin coğrafiyası və tarixinin əsas dövrlərindən bəhs edir. İkinci fəsildə ermənilərin və Ermənistan dövlətinin İrəvanın azərbaycanlı əhalisinə qarşı etnik təmizləmə siyasəti, üçüncü fəsildə İrəvan şəhəri və ümumən Qərbi Azərbaycanın (indiki Ermənistan ərazisi) toponimiyası və epiqrafik abidələri araşdırılıb. Dördüncü fəsildə Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi Azərbaycan dilinin İrəvan dialekti, orada Azərbaycan məktəbləri və müəllimləri, folklor, ədəbi mühit, mətbuat, teatr, memarlıq və s. məsələlər öyrənilir. Beşinci fəsil İrəvan tarixinin erməni saxtalaşdırıcılarının tənqidinə həsr edilib. İrəvan şəhərində Azərbaycan mədəni və tarixi irsinin sonuncu yadigarı – Təpəbaşı məhəlləsinin tarixi, bu günü və mühafizəsi məsələləri isə nəşrin altıncı fəslində araşdırılıb.

Olduqca nəfis tərtibatla nəşr edilən kitabın üzərində Azərbaycan mədəni irsinin bir nümunəsi olan Göy məscid verilib. Bu da, İrəvanın müsəlman şəhəri olmasının bir göstəricisidir.

# Oğurluq etdi, üzərindən narkotik də çıxdı

## Keçmiş məhkumun yolu yenidən həbsxanaya düşdü



**Abşeron RPİ-nin Saray Polis Bölməsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qəsəbədəki evlərin birindən oğurluq hadisəsi törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş Anar Yusifov saxlanılıb.

Dindirilmə zamanı təqsirləndirilən şəxs bildirib ki, Saray qəsəbə sakini Mirzəcan Salmanova məxsus fərdi yaşayış evinə pəncərədən daxil olub və tamah niyyətilə qəsdən özgənin əmlakını ələ keçirib. O, "LG" markalı televizoru, üzqırxan aparatını, "Samsung A 03" mobil telefonuna aid elektrik ötürücü cihazını (adaptoru), o cümlədən 2 ədəd ətiri talayaraq, ümumilikdə zərərçəkmiş şəxsə 550 manat maddi ziyan vurub.

Bundan başqa, saxlanılan A.Yusifovun üzərində şəxsi axtarış zamanı gödəkçəsinin cibindən 0,213 qram psixotrop maddə metamfetamin və 0,037 qram narkotik vasitə olan heroin aşkar edilərək götürülüb. Araşdırma zamanı təqsirləndirilən şəxs həmin narkotik vasitələri istifadə etmək məqsədi ilə bir müddət öncə tanımadığı şəxsdən aldığını bildirib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Sağlam təbliğat uğurun başlanğıcıdır

## *Daxili İşlər Nazirliyinin təşəbbüsü yerlərdə rəğbətlə qarşılanır*





Daxili İşlər Nazirliyinin Polis Akademiyasının təşkilatçılığı ilə Şirvan şəhər 21 saylı tam orta məktəbdə şəhər ərazisində yerləşən ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri ilə görüş keçirilib.

Görüş zamanı ölkəmizdə sabitliyin, asayişin təmin olunmasında, hüquq normalarının qorunmasında daxili işlər orqanlarının fədakar xidməti haqqında ətraflı məlumat verilib. Polisin sıralarına qatılmaq üçün onlara sağlam həyat tərzi keçirmələri, dərslərini yaxşı oxumaları tövsiyə edilib. Gələcəyin asayiş keşikçiləri olmaq istəyənlərə hüquq mühafizə orqanları üçün ali hüquq təhsilli əməkdaşlar hazırlayan, günü-gündən yeniləşən, müasir tələblərə cavab verən DİN-in Polis Akademiyasında yaradılan şərait, kitabxanalar, laboratoriyalar haqqında da geniş məlumat verilib.

Tədbirdə məktəblilərə bukletlər paylanılıb və Polis Akademiyasındakı müasir tədris prosesinə, kursantların hazırlığına həsr edilmiş videoçarx nümayiş olunub.

*Nizam Həmidov,*
*polis kapitanı*

# Polis generalının Qarabağ salnaməsi...




1988-ci ildə ermənilər üçün ən vacib məsələlərdən biri Xankəndi şəhərindən və Kərkicahandan azərbaycanlıların təmizləmək idi. Buna səbəb isə Xankəndində yaşayan azərbaycanlıların tarix boyu erməniləri ifşa etməsi və beləliklə də onların Azərbaycanın tarixi torpaqlarına sahiblənmək istəyini, qurduqları planları alt-üst etmələri idi.

Qeyd edilən tarixi əhatə edən dövrdə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başladılar. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olundu. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırdılar. Bu, Dağlıq Qarabağda yaşayan azərbaycanlıların kəskin narazılığına səbəb oldu. Bundan sonra Sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərdi. Və elə həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlandı.

*Sözügedən tarixdən 34 il, düz bir qərinə keçməsinə baxmayaraq, bu gün də haylar tarixi Azərbaycan torpaqlarında təxribatlara əl atır, başlarına endirilən dəmir yumruğu görməzlikdən gəlirlər.*

*“Tarix ibrət götürmək üçün ən böyük dərsdir”. Bu fikri Xankəndində illər öncə cərəyan edən hadisələrin içində olan polis general-mayoru Kamil Məmmədov deyir. O, baş verənləri deməklə kifayətlənmir, biz oxuyaq, maariflənək, düşmənimizi tanıyaq deyə yaşadıqlarını, şahidi olduqlarını qələmə almağı da unutmayıb. Çünki deyiləndən fərqli olaraq, yazılan qalır. Biz də öz növbəmizdə qocaman generalımızın xatirələrini sizlərlə bölüşməyi vətəndaş və vəzifə borcu hesab edirik.*

## Qarabağ - mənim ağrım, mənim unudulmayan xatirələrim

“Mənim üçün Qarabağda müharibə 12 fevral 1988-ci ildə başlamışdı. Həmin gün, Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Kamran Bağırovun göstərişi ilə Qarabağa getdim. Xankəndinin erməni əhalisi mərkəzi meydanda "Miatsum! Miatsum!" (Azadlıq!) şüarları səsləndirirdilər.





*Fevralın 13-də cərəyan edən hadisələr, meydandakı vəziyyət, bir sözlə, bütün bunlar yerli erməni separatist hərəkatı və xaricdəki erməni lobbisi tərəfindən cızılan, həmçinin plan üzrə idarə olunan senarinin başlanğıcı idi. Ermənilərin yoxsulluq və hüquqlarının pozulması ilə bağlı Moskvaya ünvanladıqları “şikayət” dolu məktubların hədəfində Azərbaycan göstərilirdi. Bu barədə Azərbaycanın Daxili İşlər Nazirinin əməliyyat işi və milis üzrə müavini kimi hesabat hazırlayaraq Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin katibinə yazılı şəkildə təqdim etdim.* Hadisələrin məcrasından çıxdığını və ixtişaşları yatırmaq üçün Azərbaycanın mərhum daxili işlər naziri Aydın Məmmədova müraciət edərək əlavə xüsusi qüvvələr göndərilməsinin vacibliyini bildirdim. Mənim müraciətimdən iki gün sonra Konovalov Qarabağa gəldi. Vəziyyətlə yerində tanış olduqdan sonra o, Qarabağa ezam olunmuş və mənə kömək üçün respublikanın müxtəlif bölgələrindən göndərilmiş 200 nəfərə yaxın milis işçisinə (Şuşa şəhərinin kənarındakı Malıbəyli, Quşçular kəndlərində və Şuşa şəhərinə yaxın digər yaşayış məntəqələrində) silahlara və zirehli transportyorlara baxış keçirdi.



АЗƏРБАЈЧАН РЕСПУБЛИКАСЫ
ПРЕЗИДЕНТИНИН
МУВƏККИЛИ

УПОЛНОМЕЧЕННЫЙ
ПРЕЗИДЕНТА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

№ 06 «10» февр 1992-чи ил

УДОСТОВЕРЕНИЕ

Удостоверяю, что генерал-майор милиции Мамедов Кямиль Али оглы является советником Уполномоченного Президента Азербайджанской Республики по Карабахской зоне.

Уполномоченный Президента
Азербайджанской республики: М. Мамедов

*Konovalov qüvvələrimizə və imkanlarımıza bələd olandan sonra, əmr verdi ki, güc tətbiq etməmək şərtilə, yalnız izahat işləri aparılmalıdır. Əks təqdirdə o bizi hərbi məhkəmə tərəfindən mühakimə olunacağımızla hədələdi...*

*Ölkəmin taleyi ilə birbaşa bağlı olan belə bir duruma biganə qala bilməzdim.*

*Bir müddət sonra Xankəndinə SSRİ Ali Sovetinin sədr müavini Demiçevin və SovİKP MK katibi Razumovskinin başçılığı altında nümayəndə heyəti də gəldi. Erməni separatçıları DQMV-də sosial-iqtisadi həyat səviyyəsinin aşağı olması haqqında nağıllar uydururdular. Razumovski vəziyyətlə bağlı keçirilən iclasda tribunada yan-yana dayanan Azərbaycan təmsilçilərini müdafiə etmək üçün bir söz belə demədi. Onun susqunluğu erməni yalanlarına “qol-qanad” verdi.* Mən çıxılmaz vəziyyətə düşmüşdüm. Üstəlik, Azərbaycan rəhbərliyi faktiki olaraq hakimiyyət “sükanını” Sov.İKP Mərkəzi Komitəsi və SSRİ Daxili İşlər Nazirliyinin tabeçiliyinə vermişdi. Azərbaycanda ermənilərə verilən zülmlə bağlı yalan versiya Sovet hakimiyyəti orqanlarını qane edirdi.

Günbəgün vəziyyət daha da mürəkkəbləşir, meydana toplaşanların sayı çoxalır, bədbin qonşularımızın aqressiyası böyük bir fəlakətin başlanğıcından xəbər verirdi.

*Hər bir şey açıq-aşkar göz önündə idi. Biz Qarabağa və yaxın bölgələrə qoşunların necə cəlb edildiyini, gecə yollarda tankların və ZTR-lərin necə getdiyini, Xankəndinin necə silahlandırıldığını görürdük. Mövcud şəraitlə bağlı yazdığım raportlarıma Respublikanın birinci şəxslərindən: "Əhali arasında izahedici iş aparın. İctimai asayişi qoruyun",- cavabını alırdım.*

Öyrədilmiş və təlimatlandırılmış etirazçılar Azərbaycan əleyhinə şüarlar səsləndirir, aqressiv davranır, aralarında ermənilərin çoxluq təşkil etdiyi yerli milis isə demək olar ki, reaksiya göstərmir, əksinə, etirazçıların tərəfini tuturdular.

*Bir anı heç vaxt unutmayacam: Verdiyim əmrin vilayətin daxili işlər idarəsinin rəisi, Azərbaycanda doğulmuş, polkovnik Armen Arminakoviç İsaqulovun erməni dilinə başqa cür tərcümə etməsi Vətənə xəyanət idi. Onun satqınlığı tabeçiliyimdə müxtəlif millətlərdən olan əməkdaşları da təəccübləndirmişdi. Onun belə canfəşanlığı öz bəhrəsini verdi. Sov.İKP Mərkəzi Komitəsinin nümayəndələrinin toplantısından sonra İsaqulov ermənilərin tərəfinə keçdi və ona polis general-mayoru rütbəsi verildi.*

Mənim 15-20 nəfərdən və əlavə xüsusi təyinatlılardan ibarət kiçik dəstəmlə bölgədəki partiya komitəsinə - yeganə Azərbaycan obyektinə hücüm edən kütlənin qarşısını alsam da bizə güc tətbiq etməyə icazə verilmədi. Konovalov yenidən Qarabağa gələcəyini və təlimatlarının - izahat işləri aparılmasının necə yerinə yetirildiyini yoxlayacağını vəd etdi...

Bu söhbətdən sonra o, Qarabağa heç gəlmədi...

*(Armen İsaqulovun əməllərinə hüquqi qiymət vermək üçün Azərbaycan Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikası Baş Prokurorluğunun birgə addım atmasını vacib hesab edirəm. Çünki aparılan araşdırmalar çox mətləbləri gün üzünə çıxaracaq).*

Separatçılarla mübarizə aparmaq üçün qərargah yaratdım. Şəhərləri və kəndləri gəzir, əhalini təxribatlara uymamağa çağırırdıq. Sübh çağı erməni millətçilərinin gecə dövlət binalarına asdıqları bayraqları götürür, gündüzlər isə meydana dayanıb Azərbaycan hökumət obyektlərinə gedən yolu bağlayırdıq. Əminliklə bildirə bilərəm ki, o günlərdə Azərbaycan milisi mübarizənin önündə idi...

Nazir müavini kimi həmişə informasiya axınının mərkəzində olmuşam. Məlumatlar, xəbərlər, müraciətlər, hətta ən ağılagəlməz şaiyələr - bu ciddi və həyəcanlı nişanlar siyasi optimizmə əsas verirdi.

Məlumat aldım ki, mayın 1-də Xankəndinin əsas meydanında anti-Azərbaycan və hökumət əleyhinə şüarlar səsləndirilən nümayiş keçiriləcək. Bölgə partiya komitəsinin birinci katibi Poqosyanın yanına gedərək ermənilərin bu addımı atmasına yolverilməz olduğunu dedim. O isə heç kimin belə bir şey planlaşdırmadığını bildirdi.

Səhəri günü meydanda "Qorbaçov, bizi xilas edin", "Biz hamımız birlikdə Ermənistana köçməyə hazırıq!" kimi şüarlar səsləndirən bir qrupu güclə zərərsizləşdirdik.

*Ardı gələn sayımızda*

## Daxili İşlər Nazirliyi Salyan “ASAN Xidmət” mərkəzində vakant olan vəzifələrə xidmətə qəbulla əlaqədar

## MÜSABİQƏ ELAN EDİR

Daxili İşlər Nazirliyi Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan Salyan “ASAN Xidmət” mərkəzi üzrə regional qrupda vakant olan 24 (iyirmi dörd) kiçik rəis heyəti vəzifəsinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən olunmuş şərtlərə cavab verən, yaşı 20-dən 30-dək, ailəli, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, Salyan, Neftçala və Biləsuvar rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan qadın vətəndaşlar iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılacaq, ali təhsilli, xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2022-ci il noyabrın 10-dan dekabrın 10-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri R.Behbudov küçəsi 130 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *şəxsiyyət vəsiqəsi;*
- *təhsil haqqında sənədin əsli;*
- *əmək kitabçası (olanlar üçün).*

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonu:**
**(012) 590-64-41**

## STATİSTİKA

### Kriminal icmal

- Noyabrın 25-dən 30-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 250, əvvəlki dövrlərdən bağlı qalan 39 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 278, o cümlədən borclu şəxs qismində axtarışda olan 174 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 6 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 6 nəfər ölüb.
- Narkotiklərlə əlaqəli 118, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 19 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLIS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:30
Qiyməti 40 qəpik